# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 16 (1677) 28 sentyabr 2018 - ci il Qiyməti 50 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub

**Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.**

Azərbaycan və Rusiya prezidentləri görüşdə çıxış etdilər.

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

- Hörmətli Vladimir Vladimiroviç, icazə verin, Sizi Azərbaycanda bir daha salamlayım, xoş gəlmisiniz.

Biz, Sizi görməyimizə həmişə çox şadıq. Sizin bugünkü səfəriniz xüsusi xarakter daşıyır. Biz bu gün ilk dəfə olaraq rekord miqdarda - minə yaxın iştirakçı toplayan Azərbaycan-Rusiya Regionlararası Forumunun işində iştirak edirik. Bu da tədbirə göstərilən böyük marağa dəlalət edir. Biz Sizinlə bu ayın əvvəlində Soçidə görüşmüşdük, bu gün isə Bakıda görüşürük. Bu, bizim münasibətlərimizin səviyyəsinin parlaq göstəricisidir. Biz həm siyasi, həm də iqtisadi, nəqliyyat, energetika, humanitar sahələrdə fəal əməkdaşlıq edirik. Biz bütün istiqamətlərdə böyük tərəqqi görürük. Biz bu barədə indicə Forum iştirakçılarına danışdıq, bununla onlara daha fəal işləmələri və əməkdaşlığımızı inkişaf etdirmələri üçün daha bir impuls verdik. Rusiya bizim üçün münasibətlərimizin ən yüksək səviyyədə olduğu çox mühüm və dəyərli tərəfdaş, dost və qonşudur. Düşünürəm ki, gələcək illərdə biz əməkdaşlığımızı yalnız inkişaf etdirmək, ölkələrimizin biznes qurumları üçün daha yaxşı şərait yaratmaq və bütün istiqamətlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək yolu ilə gedəcəyik. Bir daha "Xoş gəlmisiniz!" deyir və səfərə görə təşəkkür edirəm.

X X X

Rusiya Federasiyasının Prezidenti Vladimir PUTİN dedi:

- Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

Bakıya dəvətə və cüdo üzrə dünya çempionatında olmaq imkanına görə çox sağ olun. Mən bunun necə layiqli, çox yüksək beynəlxalq səviyyədə təşkil edildiyini, təşkilatçıların, cənab Vizer başda olmaqla Cüdo üzrə Beynəlxalq Federasiyanın məmnunluğunu görürəm. Mənə indi burada hər şeyin necə peşəkarlıqla təşkil edildiyini dedilər. Bu, təkcə cüdonun deyil, bütövlükdə dünya idmanının inkişafına böyük töhfədir.

Əlbəttə ki, bu gün regionlararası forumda bizim iştirakımız da bu qısa işgüzar səfərin əhəmiyyətli tərkib hissəsidir. Doğrudur, biz bu yaxınlarda Soçidə görüşdük, amma münasibətlərimizin yüksək səviyyəsini və həcmini nəzərə alaraq, bizim həmişə danışmağa sözümüz var. Necə deyərlər, MDB-nin sammiti meydanlarında da ünsiyyətimiz gözlənilir. Amma, şübhəsiz, çox əladır ki, bu şəraitdən istifadə edərək ikitərəfli münasibətlər haqqında danışmaq imkanı var. Biz hələ Soçidə qeyd etmişdik ki, münasibətlərimiz həm iqtisadiyyat, həm də digər sahələrdə müsbət inkişaf edir. İndi gərək elə edək ki, Sizin Rusiyaya səfərinizin gedişində bizim qarşılıqlı fəaliyyətimizə verilən impuls itməsin və Sizinlə imzaladığımız çox əhəmiyyətli sənədlər işləsin. Düşünürəm ki, biz bu gün elə bu barədə danışacağıq. Sağ olun.

X X X



Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin söhbətlərini çay süfrəsi arxasında davam etdirdilər.

**BU SAYIMIZDA**




## BÖYÜK ELMİ ŞURADA 2

## Rusiya senatoru ATU-da qonaq olub 3



## Azərbaycanlı alim Dünya Tibbi Hüquq Assosiasiyasının birinci vitse-prezidenti seçilib 3

## "Dünya ağciyər günü"nə həsr edilmiş simpozium 4



## Rezidentura və magistraturaya əcnəbi vətəndaşların qəbulu keçirilib



4

# BÖYÜK ELMİ ŞURADA

**◆ Sentyabrın 25-də Böyük Elmi Şuranın 2018-2019-cu tədris ilində ilk yığıncağını açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli əvvəlcə yeni tədris ilinin başlanması münasibətilə şura üzvlərini təbrik etdi.**

Gündəlikdə duran məsələlərin müzakirəsindən öncə bu günlərdə dünyasını dəyişən Azərbaycan dili kafedrasının sabiq müdiri, dosent Akif Miriyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Bundan sonra genişləndirilmiş iclasın gündəliyini diqqətə çatdıran rektor "Azərbaycan Tibb Universitetində 2017/2018-ci tədris ilinin yekunları və 2018/2019-cu tədris ilində universitet kollektivi qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevə verdi.

S.Əliyev əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu təhsil islahatlarının bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırdı.

2017-2018-ci dərs ilinin "Təhsildə keyfiyyət ili" elan olunduğunu vurğulayan S.Əliyev 2014/2015-ci tədris ilinə nisbətən ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərində dayanıqlı artım dinamikasının müşahidə olunduğunu söylədi: "Belə ki, son 5 ildə qəbul imtahanlarında 300 baldan çox toplayanların sayı 26.5 faiz, 400 baldan çox toplayanların sayı 35.1 faiz, 500 bal toplayanların sayı 51.5 faiz, 600 baldan çox toplayanların sayı isə 81,3 faiz artıb. Bu isə ali təhsil müəssisələrinin, eləcə də qəbul olunanların orta bal göstəricilərinin artması deməkdir. Bu ilin qəbul imtahanlarında 3127 nəfər abituriyent 600 baldan yuxarı nəticə göstərib. Həmin göstərici ötən il 2472 nəfər, 2016-ci ildə 2281 nəfər, 2015-ci ildə 2094 nəfər, 2014-ci ildə isə 1725 nəfər olub. Bu tədris ilində 29 nəfər abituriyent 700 bal toplayıb. Ötən il bu göstərici 15 nəfər idi".

Prorektor onu da qeyd etdi ki, xarici dillərdə tədris aparacaq kadrların hazırlanmasına kafedralarımızda xüsusi diqqət yetirilməlidir: "İşçilər yeniləşdirilərkən gənc nəslin ana dili ilə yanaşı, xarici dillərin heç olmasa birini (ingilis, rus və s.) kamil bilməsi nəzərə alınmalıdır. Həmçinin, universitet rəhbərliyi gənc müəllimlərin xarici dil bilgilərinin təkmilləşdirilməsi sahəsində ciddi iş aparır. Düşünürəm ki, universitet öz maliyyə məsələlərini yaxşılaşdırdıqdan sonra gənc müəllimlərin universitetdənkənar pedaqoji və dil cəhətdən hazırlanması məsələsinə yenidən baxacaqdır. Lakin universitetin müvafiq kafedrasında professor-müəllim heyətinə xarici dillərin tədrisi davam etdirilməli, ehtiyac duyulduğu halda məsələnin həlli üçün universitet rəhbərliyinə müraciət olunmalıdır".

Cari tədris ilində universitetin I kursuna 576 xarici ölkə vətəndaşının saziş əsasında ödənişli təhsil hüququ ilə qəbul olunduğunu (keçən il 573 nəfər) diqqətə çatdıran prorektor qeyd etdi ki, universitetin xarici tələbələrlə iş üzrə müvafiq qurumlarının işi böyük elmi şurada dəfələrlə müzakirə olunmuş və onun işinin yaxşılaşması üçün hesabat ilində əməli tədbirlər həyata keçirilmişdir: "Xarici əlaqələr üzrə yeni prorektor təyin olunmuş, fakültə dekanı və dekan müavinləri dəyişdirilərək gənc və perspektivli kadrla əvəzlənmiş, həmçinin xarici əlaqələr şöbəsinə də yeni müdir təyin olunmuşdur. Hazırda həmin fakültənin işində müəyyən dönüş yaranmışdır. Lakin əldə olunanlarla kifayətlənmək olmaz".




Məruzəsində elmi-tədqiqat işlərinin nəticələrinə, universitetin tədris binalarında, klinikalarında, yataqxanalarında və həmçinin "Təbib" istirahət düşərgəsində müəyyən əsaslı və cari təmir işlərinin görülməsinə də yer ayıran prorektor keçən tədris ilinin payız və yaz semestrlərinin imtahan sessiyalarının nəticələri üzərində xüsusi dayandı: "2017/2018-ci ilin yaz semestrinin imtahan sessiyasının başlanğıcından 6 nəfər akademik məzuniyyətdə olmuşdur. Yaz semestri ərzində öz ərizələrinə görə 11 tələbə universitetdən xaric edilmişdir. Beləliklə, 6514 tələbə imtahanda iştirak etmişdir, 340 nəfər imtahanda iştirak etməmişdir. İmtahan verməli olanlardan 5667 nəfəri bütün imtahanlarda müvəffəq qiymətlər alaraq, sessiyanı başa vurmuşdur (86,9%, keçən il 94,1%). İmtahan sessiyasını «əla» qiymətlərlə başa vuranlar – 994 nəfər (15,2%, keçən il 18%), «əla» və «yaxşı» qiymətlərlə – 2177 nəfər (34,4%, keçən il 34,9%), qarışıq qiymətlərlə – 2496 nəfər (38,3%, keçən il 31,6%) təşkil etmişlər. 507 nəfər (7,7%, keçən il 5,8%) «qeyri-kafi almışdır ki, bunlardan da 328 nəfərin yalnız bir fənndən, 95 nəfərin 2 fənndən, 84 nəfərin isə 3 və daha artıq fənndən akademik borcu qalmışdır.

Ümumiyyətlə, universitetimizin kəmiyyət göstəricisi 91,7% (2016/2017-cı tədris ili – 94,1%), keyfiyyət göstəricisi 51,3% (2016/2017-cı tədris ili – 58%) olmuşdur və göründüyü kimi kəmiyyət və keyfiyyət göstəricisi azalmışdır".

S.Əliyev universitetimizə bu il qəbul olunmuş tələbələrin test imtahanlarında yüksək nəticələr göstərməsini xüsusi qabardaraq bildirdi ki, rəhbərlik universitetə yüksək balla daxil olan və Prezident təqaüdçüsü adına layiq görülən tələbələri daimi diqqətdə saxlamağın, onları ictimai işlərə cəlb etməyin, həttа lazım olarsa, kafedralarda elmin müasir tələblərini nəzərə almaqla onlarla əlavə dərs aparmağın zəruriliyini elmi şura üzvlərinin nəzərinə çatdırır.

S.Əliyev çıxışının sonunda bir sıra kafedra müdirləri və kafedraların ayrı-ayrı əməkdaşları tərəfindən tədrisin təşkili, dərs cədvəlinin optimal tərtib olunması, ayrı-ayrı fənlərə ayrılan dərs yüklərinin artırılması, fənnin semestr ərzində tədris ardıcıllığı və s. məsələlər üzrə universitet rəhbərliyinə müraciət olunduğunu söyləyərək həmin müraciətlərin diqqətlə öyrənildiyini və imkan daxilində tətbiqinin nəzərdə tutulduğunu söylədi.



Məruzə ətrafında çıxış edən kafedra müdirləri Arif Əfəndiyev, İbadulla Ağayev və Fariz Camalov hesabatı müsbət qiymətləndirdilər. Eyni zamanda tədris prosesində mövcud olan problemlərdən də danışaraq öz təkliflərini irəli sürdülər.

Universitet üzrə mərkəzləşmiş Apellyasiya Komissiyasının sədri, professor Surxay Musayev apellyasiya araşdırmalarının nəticələri haqqında şura üzvlərinə məlumat verərək narahatçılıq doğuran bəzi məqamlara toxundu. Bir çox testlərdə sualların şərtinin konkret olmaması, cavab etalonunda doğru cavab variantının səhv verilməsi, test suallarında 2, bəzən 3 düzgün cavabın olması, bəzi testlərə çox çətin açıq sualların salınması və ayrı-ayrı testlərin məzmunundakı mücərrədliklə bağlı iradlarını diqqətə çatdırdı.

Hesabat və çıxışlarda səslənən fikirləri yekunlaşdıran rektor bugünkü elmi şuraya bütün kafedra müdirlərinin dəvət olunmasının heç də təsadüfi olmadığını, müzakirəyə çıxarılan məsələnin xüsusi əhəmiyyət daşıdığını bildirdi. Azərbaycan Tibb Universitetinin ölkə universitetləri arasında həmişə layiqli yer tutduğunu vurğulayaraq qeyd etdi ki, bizim əsas məqsədimiz və borcumuz bu ənənələri qoruyub saxlamaqdır.

Hazırkı şəraitin 30, 50 il əvvəlki şəraitdən tamamilə fərqləndiyini söyləyən G.Gəraybəyli dedi ki, yeni dövrün ən vacib xüsusiyyətlərindən biri də rəqabətdir: "Bu rəqabət bazar iqtisadiyyatı dövründə hər bir sahəyə təsir etdiyi kimi, təhsil sahəsinə də təsirsiz ötüşmür. Ölkəmizdə və ölkə xaricində fəaliyyət göstərən hər bir universitetin məhsulu tələbələrdir, hazırladığı kadrlardır. Biz tələbələrə sadəcə olaraq xidmət təklif edirik. Əgər hər hansısa bir xidmətin keyfiyyəti aşağıdırsa - istər məişət xidməti olsun, istər elmi xidmət olsun, istərsə də həkimlik xidməti olsun - o yerə getmərik. Ona görə də biz ilk növbədə dünyada gedən prosesləri izləyərək tədrisin keyfiyyəti haqqında düşünməliyik".

Elə bu gün səhər Təhsil Nazirliyi ilə Avropa Şurasının təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində birgə həyata keçirdiyi beynəlxalq layihənin açılışında iştirak etdiyini şura üzvlərinin diqqətinə çatdıran rektor həmin layihəyə səhiyyə ixtisasının salınmamasından təəssüfləndiyini də dilə gətirdi. Bildirdi ki, layihədə 4 seçilmiş ixtisas üzrə proqramların standartlaşdırılması, tədrisin keyfiyyətinin yaxşılaşdırılması, yaxşılaşdırma prosesinə aid hüquqi sənədlərin hazırlanması, eləcə də tələbələrin və müəllimlərin sərbəst mübadiləsi nəzərdə tutulur. Təhsilin keyfiyyətinin universitetimiz üçün də prioritet məsələ olduğunu vurğulayan G.Gəraybəyli əvvəlki illərlə müqayisədə qəbul planının nəzərə çarpacaq dərəcədə azalmasına diqqət yönəldərək bu prosesin kadr məsələlərinə, xüsusən də müəllimlərin akademik yükünə ciddi təsir etdiyini dedi.

G.Gəraybəyli qəbul planının azalmasına, qəbul imtahanlarının nəticəsinə görə bütün yerlərin dolmasına baxmayaraq, 9 nəfərin qeydiyyatdan keçmədiyini, yəni bizim universitetdən imtina etdiyini, təkrar sorğu əsasında onların əvəzinə daha az bal toplayan abituriyentlərin universitetə göndərildiyini söylədi. Eyni zamanda müalicə fakültəsinə ödənişsiz əsaslarla daxil olmuş 2 nəfərin öz ərizələri ilə universitetdən imtina etməsini, digər tərəfdən demək olar ki, hər semestrin əvvəlində 5-10, bəzən 15 nəfərə yaxın müxtəlif kurs tələbələrinin universitetdən getməsini təəssüflə qeyd etdi. Bütün bu halları keyfiyyət uğrunda rəqabətin nəticəsi kimi dəyərləndirərək, "xidmətin daha yüksək səviyyəyə qaldırılması sayəsində bu axın azalacaq"–deyən rektor universitetimizə qəbul olmaq üçün xarici ölkə vətəndaşlarının qarşısına qoyulan tələblərə, o cümlədən ingilis dillindən dərs deyən müəllimlərlə bağlı problemlərə də toxundu. Eyni zamanda Türkiyə universitetləri ilə çox yaxşı əlaqələrin qurulmasından məmnunluqla söhbət açdı.

Kurasiya sistemində olan dəyişiklər haqqında tələbələrin və müəllimlərin reaksiyasına münasibət bildirən rektor uzaqgörən tələbələrin bu sistemi çox yaxşı qiymətləndirdiyini, ancaq bəzilərinin "biz yoruluruq", "kursa çatmırıq" kimi cəfəng səbəblər göstərdiyini vurğuladı. Kliniki kafedralarda, xüsusən də cərrahiyyə yönümlü kafedralarda çalışan bəzi müəllimlərin bu sistemdən niyə razı qalmadıqlarına da aydınlıq gətirdi: "Təbii ki, bir neçə yerdə işləyən, xəstə qəbul edən, əməliyyata gedən adam üçün bu sistem əlverişli deyil. Kliniki kafedralarda işləyən müəllimlərin əksəriyyəti imkan yarandıqca 1 ştat vahidinə keçiriləcək, yəni yeni kadrların işə qəbulu və digər strateji xətlər elə istiqamətə yönələcək ki, kliniki kafedralarda 0.25, 0.5 ştat vahidində qalan olmasın".

Hərbi Tibb Fakültəsində keçid balının 500-ə qaldırılması ilə fakültənin sayda itirsə də, keyfiyyətdə qazandığını deyən universitetin rəhbəri yekun nitqində test imtahanlarının təkmilləşdirilməsi yollarından da danışdı. "Elektron Universitet"ə keçidlə, professor-müəllim heyətinin balreytinq attestasiyasından keçməsi ilə bağlı tövsiyələrini verdi, kadr və digər məsələlərə dair fikirlərini də şura üzvləri ilə bölüşdü.

Stomatologiya (müalicə-profilaktika və digər fakültələr üçün) kafedrasının müdiri, professor Tamara Hüseynovanı kafedrada məsləhətçi-professor vəzifəsinə seçən, elmlər doktoru işinin mövzusunu, elmi məsləhətçisini təsdiqləyən Böyük Elmi Şura müsbət rəy alan dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin əlyazmalarını çapa tövsiyə etdi və müsabiqə məsələlərinin həlli ilə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# Rusiya senatoru ATU-da qonaq olub

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi Həştərxan Dövlət Tibb Universitetinin 100 illiyi münasibətilə keçiriləcək mərasimlərə dəvət alıb. Dəvəti ATU-nun rəhbərliyinə Bakıda olan Rusiya Federasiya Şurasının üzvü, tibb elmləri namizədi, Həştərxan Vilayət Dumasının üzvü Aleksandr Başkin çatdırıb.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşü zamanı senator A.Başkin bildirib ki, Həştərxan Dövlət Tibb Universiteti vilayətin və ümumiyyətlə ölkənin ən qədim və nüfuzlu ali məktəblərindən biridir. Hazırda universitetdə 6000 tələbə təhsil alır ki, onların da 2000-i xarici ölkələrdən gələnlərdir. Həştərxan Dövlət Tibb Universitetinin 46 ölkədən olan tələbələri arasında Azərbaycanlı gənclər də var.

Dumanın səhiyyə və sosial inkişaf komitəsinin üzvü A.Başkin iki ali məktəb arasında əlaqələrin möhkəmlənməsinə ehtiyac olduğunu da vurğulayıb və ATU-nun nümayəndə heyətini Həştərxana dəvət edib. A.Başkin Azərbaycan və Həştərxan Vilayəti arasında xüsusi dostluq münasibətlərinin mövcudluğunu önə çəkərək səhiyyə, həmçinin təhsil sahəsində də bu münasibətlərin gücləndirilməsinə ehtiyac olduğunu bildirib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli Həştərxan Dövlət Tibb Universitetinin 100 illiyi münasibətilə tədbirə dəvət üçün qonağa təşəkkürünü bildirib. Rektor iki universitet arasında əlaqələrin sıxlaşdırılması məqsədilə əməkdaşlığa dair saziş imzalanmasını təklif edib: "Azərbaycan Tibb Universitetinin Rusiyanın bir çox universitetləri ilə əlaqələri mövcuddur, bəzi ali məktəblərlə qarşılıqlı əməkdaşlığa dair memorandum imzalamışıq. ATU ilə Həştərxan Dövlət Tibb Universiteti arasında sazişin imzalanması bir çox sahələrdə birgə fəaliyyət göstərməyə, birgə tədbirlər keçirməyə, həmçinin müəllim və tələbə mübadiləsini reallaşdırmağa imkan verəcək".

Rektor G.Gəraybəyli hazırda ATU-da aparılan və planlaşdırılan islahatlar haqqında Rusiyadan gəlmiş nümayəndə heyətinə məlumat verib. Qeyd edib ki, tədris proqramlarına ciddi dəyişikliklər edilir, elektron jurnala keçid hazırlanır: "ATU-nun klinikalarında Rusiya universitetlərindən olan tələbələr də təcrübə keçirlər. Bu klinikalarda tələbələrin praktiki bilgilərə sahib olması üçün hər cür şərait yaradılıb".

Tərəflər Azərbaycan və Həştərxan Tibb Universitetləri arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə saziş hazırlanıb qəbul edilməsinə dair ilkin razılıq əldə ediblər.

Görüşdə Rusiya nümayəndə heyətinin üzvü, Rusiya Federasiya Şurasının üzvü Sergey Laptev, Rusiyanın Azərbaycandakı səfirliyinin təmsilçisi, ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov, rektor müşaviri Zülfüqar Musabəyov iştirak ediblər.

# ATU ilə "Medi Club" arasında əməkdaşlıq müqaviləsi imzalandı

**Azərbaycan Tibb Universitetinin 10 tələbəsi əlavə aylıq təqaüdlə təmin olunacaq. Universitetin tələbə və rezidentləri pulsuz təlimlərdə iştirak etmək imkanı qazanacaqlar. Bunlar Azərbaycan Tibb Universiteti ilə Tibbi Servis şirkəti "Medi Club" MMM arasında əməkdaşlıq müqaviləsində nəzərdə tutulub.**



Müqavilə sentyabrın 27-də ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə "Medi Club"-ın baş direktoru Sabir Adnayev arasında görüş zamanı imzalanıb. Görüşdə müqavilənin şərtləri ətraflı müzakirə olunub və konkret bəndlərlə bağlı razılıq əldə olunub.

Müqaviləyə əsasən, "Medi Club" MMM ATU-nun 10 tələbəsinə aylıq 150 manat məbləğində təqaüd ödəyəcək. Bundan əlavə, ATU-nun hər ixtisas üzrə bir rezidentinin kompüter tomoqrafiyası, poliklinik terapiya, pediatriya və təcili yardım üzrə rotasiya tsikllərini keçməsi üçün öz kliniki bazasını təqdim edəcək. Tibbi Servis şirkəti həmçinin 12 nəfərdən ibarət tələbə və rezidentlərdən ibarət qruplar üçün pulsuz BLS və ACLS təlimlərini təşkil edəcək.

Bundan əlavə, müqavilədə tələbələrin şirkətin bazasında ödənişsiz staj keçməsi və müştərək elmi işlər aparılması da nəzərdə tutulub.

# Azərbaycanlı alim Dünya Tibbi Hüquq Assosiasiyasının birinci vitse-prezidenti seçilib

**Sentyabr ayının əvvəlində İsrailin paytaxtı Tələviv şəhərində 24-cü Dünya Tibbi Hüquq Konqresi keçirilib. Dünya Tibbi Hüquq Assosiasiyası (DTHA) tərəfindən İsrailin Səhiyyə Nazirliyi və Tələviv Universitetinin dəstəyilə keçirilən toplantıda məhkəmə təbabəti və tibbi hüququn ən aktual elmi və praktiki problemləri müzakirə olunub.**

Konqresdə 2012-ci ildən Assosiasiyanın idarə heyətinin üzvü və vitse-prezidenti olan azərbaycanlı alim, Azərbaycan Tibb Universitetinin məhkəmə təbabəti kafedrasının professoru, tibb elmləri doktoru, hüquqşünas Vüqar Məmmədov Dünya Tibbi Hüquq Assosiasiyasının birinci vitse-prezidenti və İcraiyyə Komitəsinin 4 üzvündən biri seçilib.

Təşkilatın prezidenti, professor Tomas Noquçinin əmri ilə həmyerlimiz həmçinin Assosiasiyanın Təhsil komitəsinin rəhbəri təyin olunub. Bu komitədə V.Məmmədov Böyük Britaniya, Kanada, Belçika, Peru, Avstraliya, Nigeriya, İsrail, Rusiyadan olan professorlarla birgə dünyanın bir çox ölkələrində tibbi hüquq və bioetika sahəsində təhsil proqramlarının inkişafına, həkim və tibb işçilərinin hüquqi və etik hazırlığının yüksəlməsinə xidmət edən layihələr həyata keçirəcək. Professor V.Məmmədov 2019-cu ildən etibarən Haaqada BMT-nin Beynəlxalq Cinayət Məhkəməsində DTHA-nı və ölkəmizi təmsil etmək üçün də səs toplayıb. Qeyd edək ki, Vüqar Məmmədov Bakı Dövlət Universitetinin hüquq fakültəsinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının professoru, YUNESKO-nun Bioetika Kafedrasının Azərbaycan bürosunun rəhbəridir.

Konqresdə təkcə alimlərimiz deyil, həm də Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının tələbələri də Azərbaycanı layiqincə təmsil ediblər.

Xatırladaq ki, DTHA 2017-ci ilin 11-13 iyul tarixlərində Bakıda Paşa Travel və Türk Hava Yolları şirkətlərinin dəstəyilə 23-cü Dünya Tibbi Hüquq Konqresini keçirib. Bakı konqresində Təşkilatın Baş Assambleyasının qərarı ilə tibbi hüquq, bioetika və multikulturalizmin inkişafında böyük xidmətlərinə görə Azərbaycanın Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, hörmətli Mehriban xanım Əliyeva "WAML 50th GOLDEN ANNIVERSARY AWARD" təltifi və DTHA-nın Fəxri Diplomu 11 iyul tarixində keçirilən konqresin açılış mərasimində təqdim edilib. Mehriban xanım Əliyeva postsovet məkanda evtanaziyanın bioetik və hüquqi aspektlərini elmi cəhətdən tədqiq edən ilk alimlərdəndir. DTHA-nın təltifləri Mehriban xanım Əliyevanın bu sahədə apardığı elmi işlərinin nəticələrinin əhəmiyyətini, onun səhiyyə, təhsil, və elm sahəsində rəhbərlik etdiyi layihələri və sülh, tolerantlıq və qlobal təhlükəsizliyin dünyada bərqərar olması naminə müxtəlif sivilizasiyalar və dinlər arası multikultural dialoqun təmin edilib təbliğində səylərinin beynəlxalq elmi ictimaiyyət və hüquqşünaslar tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür.




DTHA 1967-ci ildə Belçikada tibbi hüquq sahəsində multikultural və fənlərarası problemlərin tədqiqatı məqsədilə hüquq və məhkəmə təbabəti üzrə bir qrup tanınmış mütəxəssis tərəfindən yaradılıb. BMT-nin YUNESKO, Ümumdünya Səhiyyə Təşkilatı (WHO), Beynəlxalq Cinayət Məhkəməsi (İCC) və bir çox milli peşəkar assosiasiyalar ilə əməkdaşlıq edir. DTHA-nın qərargahı ABŞ-nın Kaliforniya ştatının Los-Anceles şəhərində yerləşir.

DTHA təsisçilərindən biri və hazırkı prezidenti professor Tomas Noquçi Amerikanın əfsanəsi, «ulduzların eksperti», dünyanın ən tanınmış məhkəmə-tibbi ekspertlərindən hesab olunur. 20 ildən çox Kaliforniyanın və Hollivudun baş məhkəmə-tibbi eksperti olduğu üçün senator Robert Kennedi, Hollivud ulduzları Merilin Monro, Vilyam Holden, Con Beluşi, Natali Vud, Gia Skala kimi məşhurların qətl və müəmmalı ölüm işlərinin tədqiqatçısı olub. Məhkəmə təbabəti elminə verdiyi xidmətlərə görə ABŞ hökuməti və Yaponiya imperatoru tərəfindən dəfələrlə təltif olunub.

DTHA-nın rəsmi veb-saytında (wafml.memberlodge.org и thewaml.com) tədbir haqda əlavə məlumat əldə etmək olar.

Konqresdə məhkəmə-tibbi ekspertiza, hüquqi məsuliyyət və risklərin qiymətləndirilməsi, pasiyent hüquqları və pasiyent təhlükəsizliyi, həyatın başlanğıcında və sonunda olan hüquqi və etik məsələlər, reproduktiv texnologiyaların hüquqi və etik məsələləri kimi aktual məsələlər müzakirə olunub. Konqres iştirakçıları həmçinin bioetika və insan haqları, ruhi sağlamlıq sahəsində hüquqi və etik məsələlər, ictimai səhiyyə və ekoloji etika, humanitar təbabət, din və tibbi etika, tədqiqat etikası və hüquq, orqan və toxumaların transplantasiyası, genetika, etika və hüquq kimi məsələlər ətrafında diskussiya aparıblar.

25-ci Dünya Tibbi Hüquq Konqresi 2019-cu ilin 06-08 avqust tarixlərində Yaponiyanın paytaxtı Tokio şəhərində DTHA tərəfindən Tokio və Vaseda Universitetlərinin dəstəyi ilə keçiriləcək.

**ATU-nun mətbuat xidməti**

# "Dünya ağciyər günü"nə həsr edilmiş simpozium

**ATU-nun Tədris Terapevtik Klinikasında "Dünya Ağciyər Günü"nə həsr edilmiş simpozium keçirilib. Simpoziumu Respublikanın baş allerqoloqu, professor Cəbrayıl Məmmədov açaraq ağciyər və tənəffüs yollarında yaranan xəstəliklərin dünyada geniş yayıldığını qeyd edib. Bu barədə tədbir iştirakçılarına ətraflı məlumat vermək üçün sözü professor Əlizamin Sadıqova verib.**



Ə.Sadıqov "Hospitaldaxili və ventilyator assosasiya olunan pnevmoniyaların müalicəsinə yeni yanaşma" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, hazırda dünyada pnevmaniyadan 450 milyona yaxın şəxs əziyyət çəkir və 4 milyon insan adıçəkilən xəstəlikdən dünyasını dəyişibdir. Professor dünya praktikasında son illər xəstəliyin müayinə üsullarından söhbət açaraq, Avropada və ölkəmizdə xəstəliyin diaqnostikası, aşkarlanması, yeni müalicə üsullarına toxunub və xəstəliklə mübarizə aparılması yollarını iştirakçıların diqqətinə çatdırıbdır. Pnevmoniyaların müalicəsində yeni



yanaşmalarla bağlı söylənilən fikirlər tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Ə.Sadıqov ölkəmizdə də adıçəkilən xəstəliklə mübarizə aparmaq üçün lazımi resursların olduğunu bildirib və mübarizənin daha effektli olması üçün bir sıra təkliflərlə çıxış edib.

Simpozium geniş diskussiya və sual-cavablarla işini sona çatdırıb.

# Rezidentura və magistraturaya əcnəbi vətəndaşların qəbulu keçirilib

**Azərbaycan Tibb Universitetinin rezidentura və magistratura şöbəsinə əcnəbi vətəndaşların qəbulu sona çatıb. ATU-nun rezidentura və magistratura şöbəsinin müdiri, professor Rizvan Məmmədovun sözlərinə görə, 3 kateqoriya üzrə tələbə qəbulu həyata keçirilib.**

Beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalovun sədrlik etdiyi komitə üzvləri tələbələrin həm intellektual, həm də bilik səviyyəsini yoxlayırlar. Komitənin tərkibinə ATU-nun rezidentura şöbəsinin müdiri Rizvan Məmmədov, rektorun müşaviri Zülfüqar Musabəyov, Tədris Cərrahiyyə Klinikasının baş həkimi Ramiz Poluxov, beynəlxalq əlaqələr şöbəsinin müdiri İkram Rüstəmov və



Bunlardan 3 nəfəri hazırlıq kursunu bitirib, 4 nəfər ATU-nun, 8 nəfər isə xarici ölkələrdəki müxtəlif universitetlərin məzunlarıdır: "Nəticədə 11 nəfər şöbəyə qəbul edilib. Qəbula gələn əcnəbi gənclər artıq dil imtahanından uğurla keçiblər".

Qeyd edək ki, ATU-da əcnəbi vətəndaşların universitetin qəbulu üçün xüsusi komitə yaradılıb. ATU-nun xarici tələbələrlə iş üzrə dekan müavini Nigar Ələkbərova daxildir.

Qəbulun sonunda ATU-nun rezidentura və magistraturasına qəbul edilən əcnəbi tələbələrə universitetdaxili nizam-intizam qaydaları, tədris prosesi və digər mühüm məqamlar haqqında məlumat verildi.

# ATU-nun 24 tələbəsi Prezident təqaüdünə layiq görülüb

**Prezident İlham Əliyev 2018/2019-cu tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.**



Sevindirici haldır ki, bu yüksək təqaüdə layiq görülənlər arasında 24 nəfər Azərbaycan Tibb Universitetinin tələbəsi adını daşıyır.

Prezident təqaüdünə layiq görülmüş tələbələrimizi təbrik edir, onlara daha yeni uğurlar, təhsillərində davamlı nailiyyətlər arzulayırıq.

Prezident təqaüdü alacaq ATU tələbələrinin siyahısını təqdim edirik:

1. Balakişiyeva Nərmin Arzuman qızı
2. Kərimxanov Anar Azad oğlu
3. Aslanlı Fəyyaz Eldəniz oğlu
4. Hacıyev Millət Xalid oğlu
5. Fətəli Sara Ceyhun qızı
6. Abbasov Hikmət Əhməd oğlu
7. Nəbizadə Şəbnəm İlham qızı
8. Məmmədova Səyalı Mehman qızı
9. Miriyeva Seyidnisə Cəfərağa qızı
10. Cahangirova Selcan Tərlan qızı
11. Tağıyeva Nərmin Ceyhun qızı
12. Əliyeva Arzu Əhməd qızı
13. Hüseynli Əfsanə Gündüz qızı
14. Abbaslı Ülvi İlqar oğlu
15. Əhədova Nərmin Cəmşid qızı
16. Əliyeva Rəna Məmmədağa qızı
17. Qasımova Ləman Eldar qızı
18. Xəlil Yusuf Vüqar oğlu
19. Qasımov Elnur Mayil oğlu
20. Sarıyeva Elnarə Vidadi qızı
21. Məmmədov Fərid Vaqif oğlu
22. Cəlilov Zaur Cabir oğlu
23. Nəbiyev Şəmsur İlqar oğlu
24. İsayev Vasif Vüqar oğlu

**P.S.** *Siyahıda adları gedən Cahangirova Selcan Tərlan qızı və Tağıyeva Nərmin Ceyhun qızı təhsillərini Türkiyə Cümhuriyyətində davam etdirəcəklər.*

# 21 sentyabr - Beynəlxalq Sülh Gününə həsr edilmiş tədbir

**Sentyabrın 21-də Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) KİV nümayəndələri və tibbi personalın iştirakı ilə Beynəlxalq Sülh Gününə həsr olunmuş tədbir keçirilib.**





İSİM-dən AZƏRTAC-a bildiriblər ki, tədbirdə bu tibb müəssisəsinin direktoru Qəhrəman Haqverdiyev hər il dünyada, o cümlədən Azərbaycanda qeyd olunan sülh gününün məqsəd və vəzifələri haqqında məlumat verib, əhalinin müxtəlif qrupları arasında sülh və dözümlülük mədəniyyətinin təbliğinin vacib məsələ olduğunu vurğulayıb.

İSİM-in Səhiyyə kommunikasiyası və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Laura Quliyeva çıxış edərək bildirdi ki, 21 sentyabr nəinki xalqlar arasında, həmçinin ailələrdə, məktəblərdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir fürsətdir. O, sülh mövzusunun bu gün torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edib.

İSİM-in səhiyyə siyasəti və islahatlar şöbəsinin rəhbəri Şəhla Mirzəzadə "Həkim deontologiyası və etik davranışlar" mövzusunda geniş təqdimatla çıxış edərək, həkimlərin gündəlik əmək fəaliyyətlərində riayət etmələri vacib olan davranışları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycan Respublikasında insan hüquqları və sağlamlıq hüquqlarının qanunla tənzimləndiyini vurğulayan Ş.Mirzəzadə bildirib ki, həkimlərin tibbi etik davranışlara riayət etməsi xəstəliklərlə mübarizədə, eyni zamanda, cəmiyyətdə sağlam atmosferin yaranmasında əhəmiyyətli rol oynayır.

"Cəmiyyətdə zorakılıq hallarının azalmasında mətbuatın rolu" adlı geniş təqdimatla çıxış edən İSİM-in Səhiyyə kommunikasiyası və ictimaiyyətlə əlaqələr şöbəsinin meneceri Nərmin Əliyeva mətbuat nümayəndələrini bu qəbildən olan xəbərlərə həssaslıqla və ehtiyatla yanaşmağa səsləyib. O, dünya mətbuatında və Azərbaycan mediasında yayılan zorakılıq xəbərlərinin təhlilini apararaq bildirib ki, birbaşa olmasa da, dolayı yolla bu kimi məlumatlar da bəzən cəmiyyətə zorakılığı təlqin edir: "Müasir dövrdə ictimai fikrin formalaşması və ifadə olunmasına təsir edən mühüm vasitə kimi KİV-lərin cəmiyyət həyatında rolu və əhəmiyyəti yüksəkdir. Buna görə də KİV-lər məlumatları təhlil edərək cəmiyyətə çatdırmalı, düzgün sosial təbliğatla məşğul olmalıdır".

Tədbirin yekununda mövzu ilə bağlı geniş fikir mübadiləsi aparılıb, maraqlı təkliflər dinlənildi və iştirakçılara İSİM tərəfindən hazırlanmış maarifləndirici materiallar paylanılıb.

Qeyd edək ki, bu əlamətdar gün BMT Baş Assambleyasının 1981-ci il 30 noyabr tarixli qərarı ilə təsis edilib. Yer üzündə atəş və zorakılıqdan qlobal imtina günü kimi qeyd edilən bu bayram ənənəvi olaraq BMT-nin Nyu-Yorkdakı qərargahında "Sülh zəngi"nin çalınması ilə başlayır. Bu il–2018-ci il Beynəlxalq Sülh Gününün devizi "Sülh hüququ: Dünya insan hüquqları bəyannaməsinin 70 illiyi"dir.

**ATU-nun mətbuat xidməti**

# Dekanlıq nümayəndələrinin tələbələrlə görüşləri davam edir

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin stomatologiya fakültəsinin rəhbərliyinin bütün qruplar üzrə görüşü keçirilib. Görüşdə fakültənin dekanı Səid Əhmədov, fakültənin dekan müavini Kamran Babayev və fakültənin elmi məsləhətçisi Qələndər Aslanov iştirak ediblər.**





Görüşdə çıxış edən fakültə dekanı, dosent Səid Əhmədov tələbələrin bir həftə ərzində dərslərə davamiyyəti, tədris zamanı baş verən neqativ halların cavablandırılması, eləcə də yeni innovasiya qaydaları haqqında danışaraq tələbələri dərslərinə qarşı daha məsuliyyətli olmağa çağırıb. O, tələbələri təhsil müddətində yaradılan şəraitdən səmərəli istifadə etməyə, universitetin daxili nizam-intizam qaydalarına düzgün riayət etməyə, dərslərini maksimum dərəcədə öyrənməyə və bir-birilə yaxın dostluq münasibətləri qurmağa səsləyib.

Dekan S.Əhmədov tələbələrə bildirib ki, bu ildən etibarən tələbələrimiz elektron jurnal vasitəsilə müəllimlərin fəaliyyətini, davranışını qiymətləndirə biləcəklər. O, vurğulayıb ki, bu sistem tam şəffaflığa təminat verir. Tələbələr jurnalda yaradılan xüsusi pəncərəyə daxil olmaqla imtahan prosesinin gedişi və müəllimlər barədə sualları da cavablandıra biləcəklər.

Sözünə davam edən dekan yeni yaradılan "aralıq imtahanı" haqqında da tələbələrə geniş məlumat verib və bu imtahan prosesinin qayda-qanunlarını ətraflı izah edərək bildirib ki, bu üsulun tətbiq edilməsi ancaq və ancaq tələbələrin xeyrinədir.

Sonra dekan S.Əhmədov tədris zamanı tələbələrin üzləşdiyi bir sıra müxtəlif problemlərə də aydınlıq gətirib, tələbələrin bəzi suallarını, o cümlədən, bəzi müəllimlərin onlara məcburi kitab satışı ilə bağlı şikayətlərini də cavablandırıb. Maraqlı təkliflərlə çıxış edən tələbələri diqqətlə dinləyən dekan qarşıda duran digər məsələlərə də toxunub.

Səslənən bütün problemlərin nəzərə alınacağını və öz həllini tapacağını söyləyən dekan tələbələrlə keçirilən bu görüşün çox maraqlı, eyni zamanda məhsuldar olduğunu qeyd edərək bildirib ki, gələcəkdə də belə görüşlərin davam etdirilməsi ümumi işimizin xeyirinədir.

**Sentyabrın 26-da ictimai səhiyyə fakültəsinin dekanlıq nümayəndələrinin fakültənin I kurs tələbələri ilə növbəti görüşü olub.**



Görüş zamanı fakültənin dekanı, dosent Anar Ağayev "Elekton Universitet"in yaradılması və əhəmiyyəti ilə bağlı tələbələrə geniş məlumat verib. Bildirib ki, bu ildən etibarən I kurs tələbələri ilk dəfə olaraq, elektron sistemlə təhsil alan tələbə olacaqlar və onların dərsə davamiyyəti, mənimsəmə göstəriciləri, bu və digər məqamlar elektron jurnalda öz əksini tapacaq.



Tələbə kodunu pəncərəyə daxil etməklə elektron jurnal vasitəsilə özü haqqında məlumatlar əldə edə biləcək. Valideynlər də kodu daxil etməklə öz övladları barədə məlumatı heç bir əziyyət çəkmədən, problemsiz öyrənə biləcəklər.

A.Ağayev həmçinin elektron jurnal vasitəsi ilə tələbələrin müəllimlərinin fəaliyyətini qiymətləndirmək imkanları da əldə edəcəyini bildirib.

Universitetdə aparılan islahatlarla bağlı məlumat verən dekan bu ildən etibarən 40 faiz və 40 faizdən artıq mühazirələrdə iştirak etməyən tələbələrin imtahanlara vəsiqə qazanmayacağını da qeyd edib.

Dekanlıq nümayəndələri tələbələrə təhsil aldıqları müddətdə Universitetin daxili nizam-intizam qaydalarına riayət etməyi və bir-birləri ilə dostluq münasibətləri qurmağı tövsiyə ediblər.

Dekan sonda bu cür görüşlərin əhəmiyyətinə toxunaraq, davamlı olacağını vurğulayıb.

# Qadınlarda xərçəngi erkən aşkarlamağın yolları

**Zəmanəmizin ən qorxulu xəstəliklərindən biri xərçəng xəstəliyidir. İnsanlar bu diaqnoza ölüm diaqnozu kimi yanaşır. Lakin bilmək lazımdır ki, erkən aşkarlanmış onkoloji xəstəliklər çox vaxt tam müalicə olunur. Xüsusilə qadınlar üçün bu mövzu daha çox aktualdır. Sadəcə vaxtında müayinə olunmaq lazımdır.**



Azərbaycan Tibb Universitetinin şüa diaqnostikası və terapiyası kafedrasının əməkdaşı, radioloq Günel Qəmbərova orta yaşlı qadınlara mütəmadi olaraq mammoqrafiya müayinəsindən keçməyi məsləhət görür və bu müayinənin daha erkən mərhələlərdə süd vəzi xərçəngini aşkarlamağa imkan verdiyini bildirir: "Bəzi qadınlar müayinə zamanı radiasiya təsirinə məruz qalmaqdan narahat olurlar. Qeyd edək ki, çağdaş mammoqrafiya yalnız standart döş qəfəsi rentgen müayinəsindən 0.06 qr aşağı doz ekspozisiya vermiş olur. Bu, insanın 3 saatlıq təyyarə uçuşu zamanı aldığı şüaya bərabərdir. Yəni bu dozanın insan orqanizminə ziyanı yoxdur".

G.Qəmbərova ATU-nun Tədris Terapevtik Klinikasında müasir standartlara cavab verən rəqəmsal mammoqrafiya cihazı ilə bütün növ prosedurların icra olunduğunu bildirir. Həkim bütün xanımlara müraciət edərək vaxtında müayinə olunmağı məsləhət görür.

Qeyd edək ki, artıq Dünya Səhiyyə Təşkilatı, Amerika Tibb Assosiasiyası, Mama-ginekoloqların Amerika Konqresi, Avropa və Amerika Radioloqlar Assosiasiyası, Onkoloji Cəmiyyət, Milli Onkologiya Şəbəkəsi mammoqrafiya müayinəsinin süd vəzi xəstəliklərinin erkən aşkarlanmasında qızıl standart ("Gold standart") metod olduğunu israrla vurğulayırlar.

# Tibbi cihazlar üzrə təlim

**Tədris Cərrahiyyə Klinikada tibbin ayrı-ayrı sahələri ilə yanaşı, tibbi cihazlar üzrə də mütəmadi olaraq təlimlər keçirilir.**



Əsasən rezident-neonatoloqların qatıldığı növbəti belə təlimlərdən biri də sentyabrın 21-də klinikanın nəzdində fəaliyyət göstərən Tibbi Cihazlara Nəzarət və Xidmət Şöbəsində oldu. Tibbi cihazlar üzrə mütəxəssis Cəmil Həsənov neonatoloji funksiyaya malik "CPAP" cihazı haqqında təlim iştirakçılarına ətraflı məlumat verdi və cihazın işləmə prosesini əyani şəkildə göstərdi.

Mövzuya dair təlimin 5 mərhələdə aparılacağını söyləyən mütəxəssis cihazın təyinatı və strukturunu, istifadə qaydalarını izah edərək bildirdi ki, təlimat kitabçası ilk növbədə istifadəçilər üçündür və onu oxumaq hər bir istifadəçinin borcudur. O, təqdim olunan cihazın xüsusiyyətləri və imkanları barədə də danışaraq cihazdan istifadə zamanı yarana biləcək əsas çətinliklərə toxundu, qarşıya çıxan problemlərin həlli yollarını diqqətə çatdırdı.

Cihazın hissə və detallarının sterilizasiyasının necə aparılmasından da söz açan mütəxəssis qeyd etdi ki, bu həkimlərin işi olmasa da, texniki bilgilərin zənginliyi əlavə üstünlükdür və hansı detalın harada, hansı temperaturda sterilizasiya edilməyini hər bir həkimin bilməsi, eyni zamanda tələb etməsi çox zəruridir.

Təlim zamanı avadanlıqların bir-birindən fərqinə, oxşar cəhətlərinə də aydınlıq gətirən C.Həsənov rahat daşınmayan avadanlıqların neonatologiya şöbəsində körpələrin sayına görə yerləşdirilməsinin vacibliyini də vurğuladı.

Təlimin gedişində ortaya çıxan suallar da mütəxəssis tərəfindən cavablandırıldı.

**ATU-nun mətbuat xidməti**

Y u b i l e y l ə r

# Fərman Təhməzov-85

**Bu günlərdə həyatının 48 ilini Tibb Universitetində elmi-pedaqoji işə həsr etmiş əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının sabiq dosenti Fərman Əlibala oğlu Təhmazovun 85 yaşı tamam oldu.**



1959-cu ildə N.Nərimanov adına Tibb İnstitutunun əczaçılıq fakültəsini bitirərək bir müddət Sumqayıt və Bakı şəhərinin apteklərində işləyən F.Təhməzov 1960-cı ildə əczaçılıq fakültəsinin Elmi Şurasının tövsiyəsi əsasında dərman formalarının texnologiyası üzrə aspiranturaya daxil olmuş və 1963-cü ildə aspiranturanı başa vurmuşdur. 1965-ci ildə dissertasiya müdafiə edib əczaçılıq elmləri namizədi elmi dərəcəsi almışdır. 1965-ci ilin fevralından Azərbaycan Tibb Universitetində işləyən F.Təhmazov əvvəlcə aspirantura şöbəsi üzrə inspektor, istehsalat təcrübəsinin rəhbəri, dərman texnologiyası kafedrasının assistenti, baş müəllimi, 1968-ci ildən isə dosenti vəzifəsində çalışıb.

F.Təhmazov dosent işlədiyi müddətdə kafedranın tədris işlərinə rəhbərlik etmiş, laboratoriya məşğələləri üçün metodik işləmələr, dərs vəsaitləri və dərslik çap etdirmişdir.

Tədris-metodik işlərlə yanaşı, elmi axtarışlarla da məşğul olan Fərman müəllim kafedranın və fakültənin ictimai həyatında da yaxından iştirak etmişdir.

O, 1983-1992-ci illərdə əczaçılıq fakültəsinin dekan müavini, sonra dekanı, 1990-2000-ci illərdə dərman formalarının texnologiyası kafedrasının müdiri vəzifələrində çalışmışdır. Eyni zamanda Azərbaycan Əczaçılarının Elmi Cəmiyyəti idarə heyətinin, Baş Apteklər İdarəsi attestasiya komissiyasının üzvü olmuşdur.

F.Təhmazov kafedranın və fakültənin ictimai işində fəallıq göstərdiyinə görə professor-müəllim heyəti və tələbələr arasında hörmət və nüfuza malikdir.

0, 58 elmi məqalə, metodişləmə, dərs vəsaiti və dərsliyin müəllifidir.

Əczaçılıq texnologiyası, idarəçiliyi kafedrasının əməkdaşları Fərman Təhmazovu 85 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, gümrahlıq, şərəfli həyat yollarında uğurlar arzulayırlar!

*Əczaçılıq texnologiyası, idarəçiliyi kafedrasının əməkdaşları*

# Mahirə Məmmədova – 70

**Şərəfli həkimlik, alimlik, pedaqoji fəaliyyətlə uzun illər məşğul olan Azərbaycan Tibb Universitetinin nevrologiya kafedrasının dosenti Mahirə Məmməd qızı Məmmədova respublikada uşaq nevrologiyası xidməti yaranan ilk illərdən etibarən bu peşəyə sahiblənənlərdən biridir.**

Bu il ATU-nun nevrologiya kafedrasının dosenti Mahirə Məmmədovanın 70 yaşı tamam oldu. O, peşəsini, sənətini sevməsi, xəstələrə daim diqqət yetirməsi, onlara şəfa verməsi, insanlığı və xeyirxahlığı ilə seçilir. Tibb Universitetində işlədiyi müddətdə biliyini, bacarığını böyük mehribanlıq və qayğıkeşliklə tələbələrin təhsilinə həsr etmişdir.

Qeyd edək ki, Mahirə Məmmədova 10 iyun 1948-ci ildə Ağstafa şəhərində anadan olmuşdur. 1966-cı ildə Bakı şəhərinin 27 saylı məktəbini bitirib, elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olmuş və 1972-ci ildə institutu bitirdikdən sonra 5 saylı Birləşmiş Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasının poliklinika şöbəsində sahə pediatrı işləmişdir. 1973-cü ildə Uşaq Nevroloji Xəstəxanasının ordinatoru, 1974-cü ildə ADTİ-nin II sinir xəstəlikləri kafedrasında baş laborant, asisstent, 1996-cı ildən etibarən isə dosent vəzifəsində çalışır.

Kafedrada işlədiyi müddətdə özünü savadlı həkim, müəllim kimi göstərmiş, klinika əməkdaşlarının və tələbələrin hörmətini qazanmışdır. 1986-cı ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. O, 1 monoqrafiyanın, Azərbaycan dilində "Uşaq sinir xəstəlikləri" dərsliyin, 3 metodik tövsiyənin həmmüəllifi, 1 səmərələşdirici təklifin, 108 elmi işin müəllifidir. Dərs deməyə başladığı gündən tələbələrə qarşı həmişə mehriban, səmimi, yaxın bir insan kimi xoş münasibət bəsləmişdir. M.Məmmədova daim kafedranın, fakültənin və universitetin ictimai işlərində fəal iştirak edir. 1989-cu ildən Azərbaycan Respublikasının Nevroloqlar



Və Tibbi Genetiklər Assosiasiyasının elmi katibi, 1995-2012-ci illərdə pediatriya fakültəsinin elmi şurasının katibi, 2008-2015-ci illərdə Nevrologiya və Psixiatriya üzrə problem komissiyasının, 2004-cü ildən etibarən psixonevrologiya ixtisası üzrə ilkin müdafiə şurasının, Nevroloqlar Beynəlxalq Federasiyasının, Epilepsiya ilə Beynəlxalq mübarizə Liqası və Azərbaycan Nevroloqlar Assosiasiyasının üzvüdür.

M.Məmmədova həmçinin iş yoldaşları ilə də yaxşı münasibətdədir. Ona uzun ömür, can sağlığı, gələcək fəaliyyətində böyük uğurlar arzulayırıq.

*Nevrologiya kafedrasının əməkdaşları*

# Əməkdaşımız Epileptologiya üzrə 13-cü Avropa Konqresində iştirak edib

**❍ Avstriyanın paytaxtı Vyanada Epilepsiya ilə Beynəlxalq Mübarizə Liqası (International League against Epilepsy) tərəfindən təşkil edilən Epileptologiya üzrə 13-cü Avropa Konqresində Azərbaycan Tibb Universitetinin nevrologiya kafedrasının əməkdaşı, Epilepsiya ilə Beynəlxalq Mübarizə Liqasının Azərbaycan Bölməsinin katibi, t.ü.f.d. Şəhla Məlikova da iştirak etmişdir.**




Ş.Məlikovanın «Epilepsiyalı qadınlarda hamiləliyin nəticələri» mövzusunda poster prezentasiyası konqres iştirakçıları tərəfindən maraqla qarşılanmışdır. Konqresdə 100-dən çox ölkəni təmsil edən 2500-dən çox nevroloq iştirak etmişdir. Konqresin sessiyaları və məruzələri dünyanın 200-dən artıq ən qabaqcıl epileptoloqları tərəfindən aparılmışdır (Samuel Wiebe, Alla Guekht, Meir Bialer, Eugen Trinka, Emilio Perucca, Simon Shorvon, Helen Cross, Torbjörn Tomson, Federico Vigevano, Michel Baulac, Matthew Walker, Charlotte Dravet, Philippe Ryvlin, Martin Brodie, Christian Elger və başqaları). Epilepsiyanın müxtəlif aspektlərinə dair bir çox maraqlı məruzələr konqres iştirakçıların nəzərinə çatdırılmışdır.

A.Strzelczyk, F.Rosenow (Almaniya), A.Schiefecker (Avstriya), S.Rüeggin (İsveçrə) təqdim etdiyi «Refrakter və superrefrakter epileptik status» (Refractory and superrefractory status Epilepticus) adlı sessiyyada refrakter epileptik status zamanı lakosamid, brivasetam preparatlarının istifadəsi barədə maraqlı məlumatlar verilmişdir. Epilepsiya əleyhinə preparatların teratogenliyinə (Teratogenicity of antiepileptic drugs) həsr olunmuş sessiyada R.Fennel (ABŞ), M.Bialer (İsrail), T.Tomson (İsveç), S.Şorvon (Böyük Britaniya) tərəfindən maraqlı məruzələr təqdim olunmuşdur. Hamiləlik planlaşdıran epilepsiyalı qadınlarda epilepsiya əleyhinə preparat seçimində ehtiyatlı olmaq tövsiyə olunmuşdur, lamotridjin və levetirasetam isə daha az teratogen effektə malik olan epilepsiya əleyhinə preparatlar kimi göstərilmişdir. C.Baumgartner (Avstriya), P.Marusic (Çexiya), P.Kahane (Fransa) tərəfindən təqdim edilmiş videosessiya (Advanced teaching video session: Seizure semiology – adult: Illustrating the new ILAE seizure classification for focal seizures) zamanı Epilepsiya ilə Beynəlxalq Mübarizə Liqasının yeni təsnifatına uyğun olaraq böyüklərdə fokal tutmaların semiologiyası (avtonom və emosional, tonik və klonik, hiperkinetik və koqnitiv tutmalar) nümayiş etdirilmişdir.

# İspaniyalı gənc dünyada yeganə Altsheymer "tərcüməçisi" yaradıb

**❍ Qohumları Altsheymer xəstəliyindən əziyyət çəkən David Vidal Andres adlı 27 yaşlı ispaniyalı "Cuidum Purple" şirkəti ilə birlikdə dünyada yeganə Altsheymer "tərcüməçisi" yaradıb.**



AZƏRTAC xəbər verir ki, Altsheymerin əlamətləri nəticəsində xəstələr və onlara baxanlar arasında münaqişə yarandığı mürəkkəb psixoloji anda "tərcüməçi"nin köməyindən istifadə etmək olar.

Məsələn, əgər yaşlı ana oğlunu tanımırsa və onun kim olduğunu soruşursa, "tərcüməçi" ona məlumat verir və unutqanlığının səbəbinin xəstəliklə əlaqəli olduğunu xatırladır.

Bu əlavəni "Google"da yükləmək, ondan smartfon və planşet vasitəsilə ödənişsiz istifadə etmək olar.

# Çin orqan transplantasiyası üzrə dünyada birinci olacaq

**Çin 2020-ci ildə orqan transplantasiya üzrə dünyada birinci olacaq.**




AZƏRTAC xəbər verir ki, bunu Çin Orqan Bağışlama və Transplantasiya Milli Komitəsinin direktoru Xuan Ciefu deyib.

Sian şəhərində işə başlayan 3-cü Çin beynəlxalq orqan bağışlama konfransında çıxış edən komitə direktoru bildirib ki, bu il ölkədə könüllü olaraq orqan bağışlamaq üçün müraciət edənlərin sayı 615 minə yaxınlaşıb.

Cari il ərzində Çində orqan transplantasiyası üzrə 54 min 956 uğurlu cərrahiyə əməliyyatı aparılıb.

# Əzizov Nazim Vaqif oğlu

**Yoluxucu xəstəliklər kafedrasına ağır itki üz vermişdir. Kafedranın dosenti Əzizov Nazim Vaqif oğlu uzun sürən xəstəlikdən sonra vəfat etmişdir.**



Əzizov Nazim Vaqif oğlu 30 oktyabr 1952-ci ildə Qəbələ rayonunun Vəndam kəndində anadan olmuşdur. 1969-cu ildə Qəbələ rayonunun 1 saylı orta məktəbini başa vuraraq, elə həmin il N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsinə daxil olmuş, 1975-ci ildə isə oranı bitirmişdir. İnstitutu bitirdikdən sonra Qəbələ rayonunda internatura keçmiş, 1976-1977-ci illərdə həmin rayonda baş pediatr vəzifəsində çalışmışdır. 1977-1982-ci illərdə Bakı şəhər 7 saylı Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanasında həkim-ordinator vəzifəsində çalışmışdır. 1982-ci ildə Rusiya Federasiyası Moskva şəhər Elmi-Tədqiqat Pediatriya Uşaq Cərrahiyyəsi İnstitutuna müsabiqə yolu ilə əyani aspiranturaya daxil olmuşdur. 1986-cı ildə "Erkən yaşlı uşaqlarda toksikoz fonunda metabolik dəyişikliklər" mövzusunda dissertasiyanı müvəffəqiyyətlə müdafiə etmişdir.

1986–1991-ci illərdə Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunda baş elmi işçi vəzifəsində pediatrik şöbəyə rəhbərlik etmişdir. 1991-ci ildən universitetin uşaq yoluxucu xəstəliklər kafedrasına müsabiqə yolu ilə assistent, 2014-cü ildə dosent vəzifəsinə seçilmişdir. 2015-ci ildən ömrünün axırına qədər yoluxucu xəstəliklər kafedrasında çalışmışdır. 1997-ci ildən 2010-cu ilə qədər Ə.Qarayev adına Uşaq Kliniki Xəstəxanasının 5-ci şöbəsində və Anginoz Diaqnostika Mərkəzində (ADO) özünü bacarıqlı klinist kimi göstərmişdir. O, Tibb Universitetində uzun illər Həmkarlar təşkilatında büro üzvü, 1995-ci ildən isə YAP-ın üzvü olmuşdur.

N.Əzizov bir neçə səmərələşdirici təklifin, 1 monoqrafiyanın, ixtiranın, metodik vəsaitin və 50-yə yaxın elmi məqalənin müəllifidir.

Nazim müəllim işlədiyi müddətdə intizamlı və işgüzar əməkdaş kimi özünü göstərmişdir. Qayğıkeş müəllim, fədakar ata, sevimli baba ömrü yaşamışdır. Nazim müəllim doğmalarının, tələbə və həmkarlarının qəlbində əbədi yaşayacaqdır.

***Allah rəhmət eləsin, qəbri nurla dolsun!***

*Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları*

# Dünya Ürək Günü ilə əlaqədar xeyriyyə aksiyası keçirilib

**29 sentyabr – Dünya Ürək Günüdür. Dünya Ürək Federasiyasının təşəbbüsü ilə hər ilin bu günündə müxtəlif aksiyalar və tədbirlər keçirilir.**



Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti (AÜDCC) hər il olduğu kimi bu il də silsilə tədbirlərlə bu günü qeyd edir.

Belə tədbirlərdən biri Şağan qəsəbəsində yerləşən 3 saylı əqli və fiziki qüsurlu uşaqlar üçün internat evində təşkil olunub. Burada Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin üzvü olan bir qrup həkim və tibb bacısı tərəfindən məskunlaşmış uşaqların pediatrik və kardioloji müayinəsi həyata keçirilib. Müayinədən sonra müalicə kursu təyin olunub.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Klinikanın həkim briqadasının təyin etdiyi müalicə kursuna uyğun olaraq uşaqlar lazımi dərman preparatları ilə təmin ediliblər.

AÜDCC sədri, Mərkəzi Klinik Xəstəxananın baş həkimi, professor Kamran Musayev bu cür xeyriyyə aksiyalarının mütəmadi olaraq təşkil edildiyini bildirib: "Gələcəyimiz olan uşaqların sağlam böyüməsi üçün fəaliyyət göstərmək bizim hər birimizin borcudur. Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti olaraq biz hər il qocalar və uşaq evlərini ziyarət edirik. 29 sentyabrda bütün dünyada qeyd edilən Dünya Ürək Gününü biz də ənənəvi olaraq qeyd edirik. Builki tədbirlərimiz ilk olaraq Şağan qəsəbəsindəki uşaq evi ilə başladı. Burada məskunlaşmış 170-dən artıq uşaq xəstəxanamızın həkim briqadası tərəfindən müayinə edildi, onlara uyğun müalicə kursu yazıldı."

Bu cür aksiyaların bundan sonra da davam etdiriləcəyini bildirən K.Musayev əsas məqsədin müayinə və müalicəyə ehtiyacı olan insanlara yardım etmək olduğunu deyib.

# 68 yaşlı xəstə üzərində onurğa kanalının stenozu əməliyyatı aparılıb

**Tədris Cərrahiyyə Klinikada növbəti mürəkkəb əməliyyat uğurla nəticələnib.**



Klinikanın neyrocərrahı, assistent Cəmil İskəndərovun sözlərinə görə, bu dəfə yaşlı bir xəstə onurğa kanalının stenozu diaqnozu ilə onlara müraciət edib: "68 yaşlı xəstəmiz bizim həmkarımızdır. Onurğa kanalının stenozu xəstəliyindən əziyyət çəkir. Ona əməliyyat müdaxiləsi etməli olduq. Stenoz əməliyyatının xarakterik xüsusiyyətlərində iki hal nəzərə alınmalıdır: sinir elementlərinin maksimal dekompresiyası və onurğa sütununun fiksasiyası. Fiksasiyanı bitirdikdən sonra, sinirlərin dekompresiyası, yəni sıxıntıdan azad olunmasını icra edəcəyik".

C.İsgəndərovun bildirdiyinə görə, bir saat yarım davam edən əməliyyat uğurla nəticələnib. Hazırda xəstə özünü yaxşı hiss edir.

# Dörd yaşlı uşağın böyrəyindəki daş fərqli üsulla çıxarılıb

**Klinikalarımızın mütəxəssisləri onlara müraciət edən xəstələrə kömək edir, müalicə zamanı ən müasir metodlardan istifadə edirlər. Bu günlərdə Tədris Cərrahiyyə Klinikasında qeyri-adi metodla daha bir uğurlu əməliyyat aparılıb.**



Uzman həkim, uroloq Vasif İsmayıl bildirir ki, xəstə 4 yaşlı oğlandır. Ciddi ürək qüsuru ilə doğulan bu uşaq indiyə qədər bir neçə əməliyyat keçirib. Hətta bir il ərzində ancaq süni nəfəs aparatına bağlı şəkildə yaşayıb: "Ailəsinin və peşəkar həkimlərin səyi nəticəsində uşaq indi sərbəst nəfəs ala bilir, inkişaf edir. Lakin onun ürək döyüntülərində yenə də ciddi narahatlıq olduğu üçün uşağa kardiostimulyator yerləşdirilib. Yəni, hazırda xəstəmizin ürəyi dəri altına tikilən kənar cihazın köməyilə işləyir".

Lakin son vaxtlar bu balacanı ayrı problem narahat edirdi. Körpənin sağ böyrəyində 8 mm ölçüsündə daş yaranıbmış. V.İsmayıl bildirir ki, böyrək daşı 3 formada çıxarıla bilərdi: "Birinci üsul–daşın kənardan qırılması (ESWL) - zərbə dalğa litotripsiyasıdır. Bu əməliyyat uşaqlarda narkozla aparılmalıdır. Bizim balaca xəstənin ürəyində kardio stimulyator olduğuna görə, bu terapiya uyğun görülmədi. İkinci metod - aşağıdan uretroskopiya ilə əməliyyat aparılmalıdır. Ancaq biz xəstənin 4 yaşında olduğunu və ürək qüsuruna görə inkişafdan nisbətən geri qaldığını nəzərə alaraq bu riskə də getmədik".

Həkimlərimiz 4 yaşlı uşağın böyrəyindən daşı tamamilə fərqli üsulla çıxarıblar. Uşaq üzü üstə yatızdırılıb, onun böyrəyində çox kiçik dəlik açaraq, qələm qalınlığında alətlərlə oradakı daşı çıxarıblar. Yəni, böyrəyin qapalı daş əməliyyatı - Perkutan nefrolitotomiya əməliyyatı icra olunub. Əməliyyat yarım saat davam edib və uğurla nəticələnib. Hazırda balaca özünü yaxşı hiss edir.

# 21 sentyabr Beynəlxalq Altsheymer Xəstəliyi haqqında İnformasiyanın Yayılması Günüdür

**Hər il sentyabrın 21-i Beynəlxalq Altsheymer Xəstəliyi ilə bağlı Məlumatlandırma Günü kimi qeyd edilir. Həmin gün 1994-cü ildə xəstəliyin araşdırılması və onun inkişafının ləngidilməsi ilə məşğul olan təşkilatın təşəbbüsü ilə təsis edilib. Xəstəlik ilk dəfə alman psixiatrı Alois Altsheymer tərəfindən 1906-cı ildə aşkar edilib.**



Bu, əsasən 65 yaşdan sonra inkişaf edən problemdir. Lakin xəstəliyə bəzi hallarda daha erkən yaşlarda da rast gəlmək olar.

AZƏRTAC xəbər verir ki, hələ qədim Misirdə elm adamları yaşlılıqla əqli zəiflik arasında əlaqənin olduğunu bildiriblər. Lakin xəstəlik XX əsrin əvvəllərində sübut edilib.

Altsheymer normal qocalıq əlaməti olan düşünmə qabiliyyətinin pozulması prosesini sürətləndirərək inkişaf edən və ya xroniki patologiya halına gətirən problemdir. Xəstəlik zamanı danışıq, düşünmə, qavrama, anlama, hesablama, tanıma kimi qabiliyyətlər tədricən zəifləyir.

Bu günə qədər mütəxəssislər tərəfindən bir çox sensasiya yaradan açıqlamaların olmasına baxmayaraq, xəstəliklə mübarizə və ya onun profilaktikası ilə əlaqəli heç bir dəqiq elmi sübut yoxdur. Tibbin köməyi ilə sadəcə xəstənin vəziyyətini yüngülləşdirmək olar.

Hazırda dünyada 35 milyon insan xroniki yaddaş zəifliyindən əziyyət çəkir. Mütəxəssislər 2050-ci ilə kimi bu xəstəlikdən əziyyət çəkənlərin sayının 115 milyona çatacağını proqnozlaşdırırlar.

# Kakao D2 vitamini mənbələrindən biridir

**İnsanın gündəlik rasionu üçün vacib olan əsas qidalardan biri də D vitaminidir. Onun çatışmazlığı orqanizmdə nəfəs yollarının infeksion xəstəlikləri, raxit və osteoparoz kimi problemlərin yaranmasına səbəb ola bilər.**




Almaniyanın Maks Rubner İnstitutunun və Qalle-Vettenberq Universitetinin tədqiqatçılarının apardıqları araşdırmaların nəticəsinə görə D2 vitamini ilə zəngin qidalar arasında əsas yeri tərkibi kakao olan məhsullar tutur.

AZƏRTAC xəbər verir ki, alimlərin fikrincə günəş şüaları altında qurudulmuş kakao meyvələrinin tərkibi struktur dəyişikliklərinə uğrayaraq D və D2 vitaminləri formalaşdırır.

Kakao tərkibli müxtəlif məhsullar üzərində aparılan tədqiqatlar bir daha sübut edib ki, bu qida əsas D2 vitamini mənbələrindən biridir. Alimlər kakao əsaslı qidaların tərkibində bu faydalı məhsulun müxtəlif miqdarda olduğunu da bildiriblər. Belə ki, kakao yağı və tünd şokoladda D2 vitamini digər məhsullara nisbətən daha çoxdur.

# Yuxu cədvəlində edilən dəyişikliklər ağır fəsadlar yarada bilər

**ABŞ-ın Dyukan Universitetinin mütəxəssislərinin fikrincə, yuxu cədvəlini dəyişmək bir sıra sağlamlıq problemləri yarada bilər. Belə ki, bu zaman ikinci tip şəkərli diabet, piylənmə, ürəyin fəaliyyətində pozuntular kimi ağır fəsadlarla qarşılaşmaq mümkündür.**



AZƏRTAC xarici saytlara istinadla xəbər verir ki, alimlər bu qənaətə 50 yaşdan yuxarı 200 könüllünün üzərində aparılan tədqiqatların nəticəsində gəliblər. Alimlər iştirakçıların yuxu rejimini və davamiyyətini müşahidə ediblər. Mütəxəssislərin sözlərinə görə adətən bu istiqamətdə aparılan tədqiqatlarda yalnız yuxu davamiyyəti nəzərə alınır. Lakin budəfəki təcrübə məhz yuxu rejimini araşdırmağa yönəlib.

Məlum olub ki, eyni saatda yatıb-durmaq sağlamlıq baxımından mühüm rol oynayır. Belə ki, fərqli saatlarda yatıb oyananlarda yüksək şəkər və təzyiq yarana bilər və onlar digərlərinə nisbətən stressə daha çox meyilli olurlar. Bu adamlar gündüzlər də yuxululuqdan, bədənin tonusunun zəifləməsindən və depressiyalardan şikayət ediblər. Bundan əlavə müşahidələr göstərib ki, onlarda yaxın on ildə meydana çıxa biləcək ürək xəstəlikləri, insult riski daha yüksəkdir və orqanizmin maddələr mübadiləsi prosesi pozulub.

## Allah rəhmət eləsin!

Farmakologiya kafedrasının əməkdaşları kafedranın professoru Zəkiyyə xanıma oğlu

**Etimad İsmayılovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşları kafedranın dosenti Gülşən Əliyevaya anası

**Məhbubə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın dosenti Leyla Qocayevaya anası

**Sənubər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları kafedranın müəllimi Taliyə Əliyevaya qardaşı

**Mütalib müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Dünya Səhiyyə Təşkilatı xəbərdarlıq edir

**"Dünya Səhiyyə Təşkilatının alkohollu içkilər və 2018-ci ildə ümumi sağlamlıq sahəsinə dair qlobal məruzə"sində dünyada alkohollu içkilər və onların yaratdığı fəsadlar barədə geniş məlumat verilir. Məruzədə həmçinin dünya ölkələrinin bu problemin aradan qaldırılması istiqamətində gördüyü işlər də öz əksini tapır.**

AZƏRTAC Dünya Səhiyyə Təşkilatının (DST) informasiya portalına əsasən xəbər verir ki, alkohollu içki səbəbindən dünyasını dəyişənlərin 28 faizini yol qəzaları nəticəsində həlak olanlar təşkil edir. Bu ölümlərin 21 faizi içki səbəbindən həzm prosesinin pozulması, 19 faizi ürək-damar sistemi xəstəlikləri, digərləri isə infeksion və onkoloji problemlər, psixi və orqanizmdə baş verən digər pozuntuların payına düşür.

2010-cu ildən etibarən dünya üzrə bu problemin aradan qaldırılması istiqamətində qlobal səviyyədə işlərin görülməsinə baxmayaraq, müxtəlif ölkələrin statistik göstəricilərinə əsasən problem yolverilməz dərəcədə kəskindir. Bu göstəricilər xüsusilə Avropa ölkələri və ABŞ-da daha qabarıq şəkildə özünü büruzə verir.

Hesablamalara əsasən 237 milyon kişi və 46 milyon qadın alkohol səbəbindən müxtəlif sağlamlıq pozuntularından əziyyət çəkir.

Mütəxəssislər bildirirlər ki, on il sonra bu problem daha da qabarıq şəkil ala bilər. Hazırda dünya əhalisinin təxminən 2,3 milyardı mütəmadi olaraq spirtli içki qəbul edir. Bu göstəricinin Cənub-Şərqi Asiya ölkələrində, Sakit okeanın qərb hissəsində və ABŞ-ın bir sıra bölgələrində daha da artacağı proqnozlaşdırılır.

Araşdırmalar onu da göstərib ki, hazırda orta hesabla adi insanın günlük alkohol qəbulu 33 qram təmiz spirt təşkil edir ki, bu da təxminən iki badə təmiz çaxıra bərabərdir. Hazırda 15-19 yaş arası gənclərin təxminən 27 faizi spirtli içki qəbul edir. Bu sahədə ən yüksək göstərici Avropa ölkələrində qeydə alınıb - 44 faiz.

Dünyada ümumi qəbul olunan spirtli içkilərin 45 faizi yüksək dərəcəlidir.

Hesablamada o da bildirilir ki, dünyada 15 yaşdan yuxarı insanların təxminən 3,1 milyardı ümumiyyətlə spirtli içki içmir.

# Alkohol istehlakı dünyada hər il 3 milyon insanın həyatına son qoyur

**Dünyada hər 20 ölüm halının biri alkohol istehlakı ilə əlaqədar baş verir.**



AZƏRTAC xəbər verir ki, bu məlumat Dünya Səhiyyə Təşkilatının (DST) sentyabrın 21-də açıqladığı hesabatda yer alıb. Hesabatda qeyd edilir ki, alkohol istehlakı hər il dünyada üç milyondan çox insanın həyatına son qoyur. Bu göstərici isə QİÇS, zorakılıq və nəqliyyat qəzaları nəticəsində baş verən ölüm hallarının cəmindən daha çoxdur. Alkoholla əlaqəli ölənlərin dörddə üç hissəsi kişilərdir.

DST-nin baş direktoru Tedros Adhanom bildirib ki, çoxlu sayda insanlar, ailələr, eləcə də bütöv icmalar alkoholdan sui-istifadənin müxtəlif fəsadlarından (zorakılıq, müxtəlif xəsarətlər, psixi problemlər, xərçəng və insult kimi xəstəliklər) əziyyət çəkir.

Ümumilikdə 500 səhifəlik hesabatda iki yüzdən çox xəstəliyin birbaşa və ya dolayı yolla alkohol istehlakı ilə bağlı olduğu qeyd edilib. Diqqətə çatdırılıb ki, həddən artıq spirtli içki qəbulu insanların immun sistemini zəiflədərək, onların asanlıqla vərəm, QİÇS, ağciyər iltihabı və digər xəstəliklərə tutulmasına yol açır. 2016-cı ilin statistikası əsasında hazırlanmış hesabatda spirtli içkilərə görə dünyasını dəyişən insanların sayının ümumi ölüm hallarının 5,3 faizini təşkil etdiyi bildirilib.

Bununla belə beynəlxalq təşkilat alkohol istehlakında azalmanın da müşahidə olunduğunu açıqlayıb. Belə ki, 2012-ci ildə dünyada 3,3 milyon insan alkohol istehlakından vəfat etdiyi halda, 2016-cı ildə bu göstərici 3 milyon nəfərə düşüb. Bu müsbət tendensiyanın davam etməsi üçün ciddi addımlar atılmalıdır.

Təşkilatın açıqlamasına görə, dünyada 2,3 milyard insan spirtli içki istehlak edir. Qitələr arasında ən çox alkohol Avropada qəbul edilir.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin VI kurs, $276^{a}$ qrup tələbəsi Əsədova Rəvanə Həsən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $365^{a}$ qrup tələbəsi Məmmədov Qüdrət Məhyəddin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $317^{i-2}$ qrup tələbəsi Haitham Al-Duhami Haqinin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $317^{i-6}$ qrup tələbəsi Dalya Al- Samarraienin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $41^{a}$ qrup tələbəsi Muhahammed Salih Altundağ Ferudin oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $36^{b}$ qrup tələbəsi Mehmet Asım Altundağ Veysi oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin II kurs, $817^{a-4}$ qrup tələbəsi Əsgərova Fatimə Yaşar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $170^{a}$ qrup qrup tələbəsi Hacıyeva Gülnarə Etibar qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800